Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
“ İctimai və dövlət maraqlarının müdafiəsi”

# “Kaspi”nin mürəttibi

## İsmayıl Həqqinin kontoru Tiflis azərbaycanlılarının mədəni mərkəzinə çevrilibmiş

**Ədəbiyyatşünas alim Əziz Şərif ”Keçmiş günlərdən” adlı əsərində yazırdı: ”Bir adamla görüşmək, bir kəsdən xəbər tutmaq, mədəniyyət aləmindən təzə bir məlumat almaq istəsək, Həqqinin kontoruna qaçar və həmişə burada öz arzumuzu yerinə yetirərdik. Bir sözlə, Tiflis azərbaycanlılarının mədəni mərkəzi Həqqinin kontoru idi”.**

Bu o kontor idi ki, Azərbaycan ədəbiyyatının, mətbuatının, maarifinin, teatrının inkişafında çox böyük rolu olan M.Cəlil, H.Cavid , M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, H.Ərəblinski, M.Sidqi, Ə.Qəmküsar və elə Əziz Şərif bura yığışar, Azərbaycan ədəbi mühiti ilə bağlı problemlərin həllini burada çözərdilər.

Xatirələrdən belə bəlli olur ki, Həqqi 1912-ci ildə Tiflisdə Şeytanbazar deyilən məhəllədə kiçik bir mətbəə və kitab mağazası alıbmış. Mətbəəyə ”Şərq” adı verən və Mirzə Cəlilin köməkliyi ilə bir neçə şrift dəsti, əllə hərəkətə gətirilən balaca çap maşını əldə edən Həqqi burada, Əziz Şərifin dili ilə desək, ”xırım-xırda sifarişləri” çap edirmiş.

Tədqiqatçı alim Əziz Mirəhmədov yazırdı: ”Gürcüstanda yaşayan azərilər arasında son yüzillikdə yetişib ömrünü xalqının mədəni tərəqqisinə -mətbuat, nəşriyyat, teatr sənətinə xidmətdə keçirən İsmayıl Həqqi Tiflis ədəbi mühitində böyük hörmət sahibi olub”.

İsmayıl 1885-ci il (Ə.Mirəhmədov 1885-ci il yazır, başqa tədqiqatlarda isə əsasən 1884-cü il, bəzən də 1882-ci il qeyd edilir-müəl.) dekabrın 21-də Tiflisdə Səməd kişinin ailəsində anadan olub. İsmayıl Həsənzadə (”Həqqi” təxəllüsü idi) yalnız mədrəsə təhsili alıb. Ailəsinin maddi çətinlikləri olduğu üçün yüksək təhsilə sahib ola bilməyən İsmayıla yüksək təhsili yetişdiyi ədəbi-mədəni mühit verib. Tiflisdə yaşayan İsmayıl gənc yaşlarından Məhəmmədağa Şahtaxtlı, Ömər Faiq Nemanzadə və Mirzə Cəlillə yaxınılq edib və bütün ömrünü mətbuat, nəşriyyat, teatr işinə həsr edərək dövrünün tanınmış mühərriri, mürəttibi, aktyoru kimi tanınıb.

İlk olaraq ”Şərqi-Rus” qəzetinin, sonra isə ”Molla Nəsrəddin” jurnalının mürəttibi olan İsmayıl Həqqi Mirzə Cəlilin ən fədakar və sadiq mollanəsrəddinçilərindən biri imiş. O, mürəttiblikdən əlavə, jurnalın nəşri və yayımlanmasında Mirzəyə çox yardımçı olub. Mirzə Cəlil bir neçə səbəbdən Kəhrizlidə qalmalı olanda İsmayıl Həqqi jurnalın müvəqqəti redaktoru Məhəmmədəli Sidqinin sağ əli idi. Hətta Mirzə Cəlil özü redaksiyada olarkən belə, redaksiyanın bir çox işlərini Həqqiyə tapşırarmış. Bunu Mirzə Cəlilin və Həmidə xanımın məktublarından, xatirələrindən də bilmək olur.

Tədqiqat əsərlərindən bilirik ki, 1912-ci ildə senzuranın güclü nəzarəti nəticəsində ”Molla Nəsrəddin” müvəqqəti olaraq nəşrini dayandırmağa məcbur olur. Həqqi bu haqda yazırdı: ”İşlərimiz yaman pırtdaşıqdır. İş təzə (Həqqi iş təzə dedikdə özü yenicə açdığı mətbəə və mağazasına işarə edirdi-Ə.Mirəhmədov), ətraf borc, nişanlı adam, qənaət bilmirəm, üzüm yumuşaq. ”Molla Nəsrəddin”in dayanmaqlığı bizi lap dala saldı”.



Bu zaman İsmayıl Həqqi vaxtının çoxunu Tiflisdəki Azərbaycan teatrında keçirir. Teatrla yaxınlıq onun Hüseyn Ərəblinski, Hüseyn Cavid və Əziz Şəriflə dostluğuna səbəb olur. ”Hüseyn Cavidi, Əziz Şərifi və Ərəblinskini tez-tez İsmayıl Həqqinin kontorunda görərdik. Həqqi onları və ümumiyyətlə, Tiflisdə yaşayan azərbaycanlı ziyalıları tez-tez evinə qonaq çağırardı”.

Əziz Şərif belə qonaqlıqlardan biri haqqında yazırdı: ”Axşam Həqqigilə getdim. Burada otuz beşə-qırxa qədər adam yığılmışdı. Seyid, Mirzə Cəlil, Hüseyn Cavid, Faiq əfəndi, Əliqulu, Əhməd Ömərbəyov (Pepinov) və Ərəblinski məclisin başında əyləşmişdilər. Seyid ”Şur”u oxudu. Onun oxumağı hamını valeh eləmişdi. Şikəstəni başladı. Tarı da Nadir çalırdı. Musiqidən sonra söhbət yenə də Azərbaycan mətbuatından, ədəbiyyatından, Tiflis müsəlman dram cəmiyyətinin artistlərindən düşdü. Məclis yaman qızışmışdı.Gecə yarıya işləyəndə biz böyük dəstə ilə evdən çıxdıq. Belə məclislər Həqqigildə tez-tez olardı”. ”Çamaatımıza incəsənətin, maarifin əhəmiyyətini duymağı anlatmaq borcumuzdur” - söyləyən Həqqi kontoru kimi evini də mədəniyyət ocağına çeviribmiş. Odur ki, Tiflisdə yaşayıb yaradan azərbaycanlı ziyalıların əksəriyyətinin İsmayıl Həqqi ilə aralarında səmimi və möhkəm dostluq münasibəti yaranır.

İsmayıl Həqqinin teatra meyil etməsinə də səbəb Mirzə Cəlil olub. Aktyorluq qabiliyyətinə malik olan Həqqi Mirzə Cəlilin məsləhəti ilə 1910-cu ildə Tiflisdə yaranan Zubalov adına xalq evindəki Azərbaycan teatrına yazılır. Bir neçə dəfə ”Ölülər”də Şeyx Nəsrullahı, ”Arşın mal alan”da Rzanı, ”Leyli və Məcnun”da Məcnunun atasını, ”Əsli və Kərəm”də keşiş rollarını ifa edən Həqqinin adı 1910-1915-ci illər ərzində Tiflis müsəlman cəmiyyəti aktyorları arasında fəxrlə çəkilirmiş.

İsmayıl Həqqi bir neçə il Bakıda yaşayır və ”Kaspi” qəzetinin mətbəsində mürəttib işləyir. İlk dəfə burada dahi şair M.Ə.Sabiri görür. Bu haqda illər sonra xatirələrində yazırdı: ”Böyük Sabiri ilk dəfə mən Bakıda ”Kaspi” mətbəəsinə gələndə görmüşəm. Yanılmayıramsa, 1907-ci il idi. Sonra ay keçdi, il dolandı, mən Bakını tərk edib, 1909-cu ildə Tiflisə evimizə qayıtdım. Mürəttib sifətilə ”Molla Nəsrəddin” jurnalında çalışmağa başladım və yenidən onunla görüşdüm. Hər həftə böyük Sabirimizin ləzzətli və mənidar şeirlərini düzürdüm. Mən ona Sabir əmi deyə müraciət edərdim. Sonra o, bərk xəstələndi. Mirzənin və Həmidə xanımın köməkliyi ilə mən Məmmədəli ilə bərabər onu Tiflisdə məşhur Aramyans tərəfindən tikdirilmiş birinci şəhər xəstəxanasına yerləşdirdik. O vaxt bu xəstəxana Tiflisin ən gözəl xəstəxanalarından biri idi. Hər gün onun yanına gedirdik. Sabir əmi əsla təkliyi xoşlamazdı”.



Qərənfil Dünyamin qızı
Əməkdar jurnalist

Bolşeviklər Azərbaycanda hakimiyyəti zəbt edəndən sonra İsmayıl Həqqi Tiflisdə yenə də mətbuat və teatr sahəsində çalışıb. Tiflisdə çap olunan ”Yeni kənd” qəzetinin redaksiyasında və Gürcüstan SSR EA mətbəəsində işləyib. Həmin illərdə Mirzə Cəlillə, Hüseyn Cavidlə məktublaşıb. Hətta 1928-ci ildə Mirzə Cəlil ”Xatiratım” əsərini işlərkən Həqqinin məktubları ona çox böyük yardımçı olub. Bu məktublarda mollanəsrəddinçilərlə bağlı xatirələr, onların imzaları haqqında maraqlı faktlar var.

Tədqiqat əsərlərində İsmayıl Həqqinin publisistika və tərcümə ilə məşğul olması söylənilsə də, faktiki olaraq heç bir publisistik məqaləsinin və tərcüməsinin adı çəkilmir. Yalnız Ə.Mirəhmədov yazır: ”Onun hələlik bircə tərcüməsi məlumdur: İqorbunov-Posadov. Çolaq uşaq. Tiflis. ”Şərq” basmaxanası”.

İsmayıl Həqqinin ölümü barədə xəbərlərlə müxtəlif mənbələrdə rastlaşdım. Görkəmli alim Ə.Mirəhmədovun yazdığına görə, Həqqi ”ağır xəstə olub, yay zamanı bəzən müalicəyə getsə də, çox yaşamayıb, 53 yaşında vəfat edib”. ”Cəlil Məmmədquluzadə Ensiklopediyası”nda isə Həqqinin ölüm tarixi kimi 1944-cü il qeyd edilib.

Əvvələ, onu qeyd edim ki. Ə.Mirəhmədov ”Azərbaycan jurnalistləri və naşirləri” əsərini yazmaq üçün faktları toplamağa 1940-50-ci illərdə başlayıb. Təbii ki, o, o zaman yaza bilməzdi ki, İsmayıl Həqqi ”xalq düşməni” olduğu üçün güllələnib. ”Cəlil Məmmədquluzadə Ensiklopediyası” isə 2008-ci ildə çap edilib. Ona görə burada Həqqinin represiyyaya məruz qalması yazıla bilərdi.

Həsənzadə İsmayıl Səməd oğlu (Həqqi) 1938-ci ildə ”xalq düşməni” kimi həbs edilərək güllələnib. Lakin bu həbsin və güllələnmənin hansı qərara əsasən həyata keçirilməsini yazmaq üçün mütləq Gürcüstan Dövlət Arxivinə müraciət etmək lazımdır.

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***

# Elmi əsərlər mükafatlandırılacaq

## Təhsil Nazirliyi müsabiqə keçirməyi planlaşdırır

**Təhsil Nazirliyi Azərbaycanın elmi nailiyyətlərinin beynəlxalq miqyasda tanınması, ali təhsil müəssisələrinin elmi-pedaqoji əməkdaşlarının elmi fəaliyyətinin və nəşr aktivliyinin daha da yüksəldilməsi məqsədilə ”Thomson Reuters” bazasında olan jurnallarda çap olunmuş elmi əsərlərə görə mükafatlandırma üzrə müsabiqə keçirəcək.**

Nazirlikdən verilən xəbərə görə, müsabiqədə ali təhsil müəssisələrinin elmi-pedaqoji əməkdaşlarının elmi fəaliyyətinin keyfiyyət göstəricisi əsas götürüləcək. Müəlliflərin elmi fəaliyyətinin keyfiyyət göstəricisi Təhsil Nazirliyi tərəfindən hazırlanıb təsdiq edilmiş xüsusi metodika ilə müəyyənləşdiriləcək. Müsabiqə ildə bir dəfə olmaqla, təqvim ilinin sonunda təşkil ediləcək və bununla bağlı ətraflı məlumat veriləcək.




Qeyd edək ki, 22 dekabr tarixində Təhsil Nazirliyi ilə ”Thomson Reuters” şirkətinin Elmi tədqiqatlar və intellektual mülkiyyət üzrə şöbəsi arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqaviləyə əsasən, ölkənin 40 ali təhsil müəssisəsinə abunə imkanı yaratmaqla, onlara korporasiyanın məhsul və xidmətlərinə çıxış imkanı yaradılıb. Həmçinin nazirlik əməkdaşlarına da ”Web of Science” platformasının bazasına çıxış imkanı verilib.